## Əmanətçilərin ərizələrinin qəbulu müddəti başa çatır

6 ay ərzində 1 milyon 220 min 253 əmanətçiyə vəsait ödənilib

«Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında» ölkə başçısının 14 mart 2012-ci il tarixli fərmanına uyğun olaraq, bu il iyun ayının 1-dən keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsinə başlanılıb. Keçmiş SSRİ Əmanət Bankının Azərbaycandakı hüquqi varisi olan «KapitalBank» Açıq Səhmdar Cəmiyyəti birdəfəlik müvəkkil bank kimi ödəmələrin qaytarılmasını həyata keçirir. Fərdi birdəfəlik ödəmələrin alınması ilə bağlı müraciətlərin qəbulu və ödəmələrin verilməsi məqsədilə «KapitalBank» tərəfindən ümumilikdə 144 məntəqə təşkil edilmişdir. Bundan başqa, itmiş, yaxud yararsız vəziyyətə düşmüş əmanət kitabçaları üzrə müraciətlərin qəbulu məqsədilə Bakıda üç, Naxçıvan, Gəncə və Sumqayıt şəhərlərinin hər birində bir əlavə məntəqə fəaliyyət göstərir. Digər rayon və şəhərlərdə bu qəbildən olan müraciətlər «KapitalBank»ın yerli filiallarında qəbul olunur.

Müraciətlərin qəbulu üçün ayrılan müddət artıq son mərhələdədir: əmanətçilərin dekabr ayının sonunadək ərizə ilə müraciət etmək hüququ var. Bu müddət bitdikdən sonra isə müraciətlər qəbul olunmayacaq. «KapitalBank»ın Əmanətçilərə Birdəfəlik Ödəmələrin Verilməsi Mərkəzinin direktoru Araz Əliyev bildirib ki, verilən müddət azalsa da, əmanətlərinin arxasınca gəlməyənlər var. Onun sözlərinə görə, 49223 şəxs hələ əmanətlərini bankdan götürməyib: «Mərkəz bu şəxslərin müraciətlərinə müsbət cavab versə də, əmanətçilər birdəfəlik ödənişlərini almağa gecikirlər».

A. Əliyevin sözlərinə görə, 6 ay (iyun-noyabr) ərzində «KapitalBank»a fərdi birdəfəlik ödəmələrin verilməsi üçün əmanətçilərdən 1 milyon 328 min 943 müraciət daxil olub və Əmanətçilərə Birdəfəlik Ödəmələrin Verilməsi Mərkəzində 1 milyon 220 min 253 əmanətçiyə vəsait ödənilib. Mərkəz rəhbərinin sözlərinə görə, son aylarda ərizələrin sayında azalma var, oktyabr ayında təxminən 200 min ərizə təqdim olunduğu halda, noyabrda bu göstərici 180 minə enib. Dekabr ayı üçün də təxmini proqnoz həmin səviyyədədir.

Qeyd edək ki, müraciətlərin qəbulu ilin sonunadək, 29-31 dekabr da daxil olmaqla, davam edəcək və araşdırılması uzun zaman tələb etməyən bütün müraciətlər bu müddət ərzində icra ediləcək. Ortaya çıxan bütün araşdırmaların aparılması, problemli ərizələrə baxılması, vərəsəliklə bağlı müddətlərin uzadılması və s. səbəbdən gecikdirilən ödəmələrlə bağlı məsələlərin həll olunmasına isə əlavə 1 il vaxt ayrılacaq.

AYTƏN